Tarix göstərir ki, müstəmləkəçilik siyasəti yürüdən, qan və ölüm qoxuyan imperialist ənənələrindən əl çəkməyən dövlətlər nə qədər güclü, qüdrətli olsalar da, gec-tez çökməyə məhkumdurlar. Bunu Fransanın nümunəsində aydın görmək mümkündür. Müstəmləkəçilik siyasətindən ikiəlli yapışan rəsmi Paris beynəlxalq aləmdə nüfuzunu getdikcə itirməkdədir. Makron hakimiyyətinin apardığı uğursuz və çirkin siyasət bu ölkəni bataqlığa sürükləyir.

# Fransa tarixi haqsızlıq qarşısında utanmalıdır

## Törətdiyi soyqırımlarına görə bu ölkə lənətlənir

Afrika ölkələri tutarlı faktlarla rəsmi Parisin iç üzünü açıb onun bütün eybəcərliklərini dünyaya göstərir. Fransanın Afrika ölkələrində kolonialist siyasət yürütdüyünü təkzib olunmaz fakt və dəlillərlə sübuta yetirir. Ötən il Fransa silahlı birləşmələri artıq bir neçə Afrika ölkəsindən çıxarılıb. Uzun illərdən bəri soyqırıma məruz qoyulmuş, milli sərvətləri talan olunmuş ölkələr bütün bunlardan təngə gəlib artıq dözümsüzlük nümayiş etdirir, Parisə qarşı açıq etiraz səslərini ucaldırlar.

Xüsusilə qeyd olunmalıdır ki, bu işdə Azərbaycanın da göstərdiyi xidmətlər əvəzsizdir. Daim insanların azadlığına böyük töhfələr verən ölkəmizin təşəbbüsü ilə başlanan Bakı Təşəbbüs Qrupu hərəkatı bütün dünyada Fransa kolonializmini ifşa edərək qətiyyətli sözünü deyir.

Tarixdən məlumdur ki, Əlcəzair də Fransa işğalına, soyqırımına məruz qalan ölkələrdən biridir. Xatırladaq ki, 2022-ci ildə bu ölkədə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə fəxri qonaq qismində dəvət almış Prezident İlham Əliyev səfər çərçivəsində Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etmişdi.

İşğalçı Fransanın qanlı izləri Afrikanın bir çox ölkəsində olduğu kimi, Əlcəzairdə də qalmaqdadır. 1984-cü ildə açılmış Milli Mücahidlər Muzeyindəki kolleksiyaların çox hissəsi ölkənin Fransa tərəfindən işğalına və 1830-1962-ci illər ərzində Əlcəzair xalqının rəsmi Parisin müstəmləkəçiliyinə qarşı apardığı mübarizəyə həsr olunub. Əlcəzair xalqının azadlıq mübarizəsi böyük sınaqlardan keçib, yüz minlərlə qurbanın verilməsi ilə nəticələnib. Bir çox tarixçi baş verən hadisələrin miqyasının genişliyinə, insan ölümünün çoxluğuna görə Fransanın Əlcəzairdə törətdiyi soyqırımını azadlıq mübarizəsini boğmağa qarşı yönəldilmiş tarixi və bəşəri cinayət adlandırır. Tarixi faktlar sübut edir ki, fransızlar 1830-1962-ci illərdəki işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər.

Fransanın törətdiyi və dünyanı sarsıdan daha bir qanlı faciə 1961-ci ilin oktyabrında baş verib. Həmin tarixdə on minlərlə əlcəzairli Fransanın ölkələrindəki işğalına etiraz etmək üçün Parisin küçələrində nümayişə çıxıb. Fransa etirazçılara qarşı dünyanın heç bir ölkəsində görünməyən güc tətbiq edib, amansızlıq göstərib. Həmin hadisə zamanı Fransa polislərinin açdığı həm atəş, həm də etirazçıları vəhşiliklə sıxışdırıb Sena çayına tökməsi nəticəsində 1500-ə qədər əlcəzairli böyük qəddarlıqla qətlə yetirilib. Min nəfərdən çox etirazçı həbs olunaraq ağır cəzalara məhkum edilib. 1961-ci ilin oktyabrında baş verən bu dəhşət püskürən qanlı hadisə tarixə "Sena qətliamı" kimi düşüb.

Rəsmi Paris Əlcəzairi yalnız soyqırımına məruz qoymayıb. İşğalçı Fransa Əlcəzairi ən təhlükəli təcrübələrinin sınaq meydanına çevirib. Bu, ölkənin ekologiyasına da ağır zərbələr vurub. Ötən illər ərzində Fransa Əlcəzairdə 17 atom bombasını sınaqdan keçirib. Parisin 1960-1978-ci illərdə Əlcəzairdə sınaqdan keçirdiyi atom bombalarının radioaktiv təsiri hələ də bu ölkəyə zərər verməkdə davam edir. 1966-cı ildə Əlcəzair xalqının və dünyanın etirazı nəticəsində Fransa bir daha bu ölkədə nüvə sınaqları keçirməyəcəyini bildirib. Amma rəsmi Paris verdiyi vədə əməl etməyib. 1997-ci ildə məlum olub ki, Fransa Əlcəzairdə 1978-ci ilə qədər gizli şəkildə nüvə sınaqları keçirib.



Son aylar Fransa və Əlcəzair arasında siyasi gərginlik pik həddə çatıb. Neçə vaxtdan bəri başlayan bu gərginlik diplomatik böhran olmaqla yanaşı, həm də Makron hakimiyyətinin getdikcə zəiflədiyini, dövlət başçısının nüfuzunun aşağı düşdüyünü göstərir. Aydın görünən odur ki, Makron prezident kimi getdikcə xalqının dəstəyini itirir. Günlər keçdikcə onun reytinqi aşağı düşür, sosial gərginlik artır, iqtisadi problemlər dərinləşir. Bütün bunlar isə insanları Parisin küçələrinə çıxarır, etiraz dalğası getdikcə genişlənir, hakimiyyətin çökmə prosesini sürətləndirir.

Ölkənin belə ağır bir vəziyyətində rəsmi Paris hiyləyə əl atır, ictimai rəyi yayındırmaq üçün Əlcəzairi siyasi hədəfə çevirir, bir növ boş hay-küylə fransız xalqının başını qatır. Müşahidəçilər haqlı olaraq Yelisey Sarayının Əlcəzairə yönəltdiyi hücumların nə siyasi, nə də diplomatik baxımdan ona hansısa üstünlük gətirəcəyinə ümid etmirlər. Əksinə, bu çirkin siyasətin Makron rejiminin beynəlxalq aləmdə daha da gözdən düşməsinə və ölkədəki böhranın daha da dərinləşməsinə gətirib çıxaracağını vurğulayırlar.

Məşhur səyyahlar Parisi başdanayağa gəzib-dolaşdıqdan sonra bu şəhəri muzeylər diyarı adlandırıblar. Həqiqətən də bu şəhərdə muzeylər çoxdur. Amma həmin muzeylərin bəziləri fransızların yüksək bəşəri mədəniyyətə malik olduqlarını deyil, tarixən necə qaniçən olduqlarını göstərir. Fransanı dünyaya əzazil kimi göstərən belə muzeylərdən biri də İnsan Muzeyidir. 1887-ci ildən 1937-ci ilədək Etnoqrafiya Muzeyi kimi fəaliyyət göstərən muzeydə 18 mindən artıq insan kəlləsi nümayiş etdirilib. Bu kəllələrin arasında Fransanın işğalına qarşı döyüşmüş Əlcəzair xalqının cəsur övladlarınınkı da var. Fransızlar muzeydə öldürülmüş döyüşçülərin və mülki əhalinin kəsilmiş başlarını və kəllə sümüklərini nümayiş etdirməklə həm də azadlıq istəyən Afrika xalqlarının gözlərini qorxutmaq məqsədi güdürlər.

Bu günlərdə Fransada yaşayan əlcəzairlilər mitinq keçirərək hakimiyyətdən keçmişdə törətdiyi müharibə cinayətlərini rəsmi şəkildə tanımasını tələb ediblər. Həmçinin əlcəzairli döyüşçülərin Fransadakı muzeylərdə saxlanılan skeletlərinin, sümüklərinin geri qaytarılmasını istəyirlər. Parisdə yaşayan əlcəzairli həkim, tibb elmləri doktoru Attar Camel Fransa hökümətinə etirazını bu sözlərlə bildirib: "Biz istəyirik ki, Fransa dövləti muzeylərdə saxladığı Əlcəzairin şəhid oğullarının kəllələrini vətənlərinə qaytarsın. Bu tarixi haqsızlıq qarşısında Fransa utanmalıdır. Müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərin kəllələrini muzey eksponatı kimi nümayiş etdirmək insanlığa sığmayan bir rəzalətdir".

Yelisey Sarayı bütün vasitələrlə Əlcəzairdə törətdiyi qanlı hadisələri, soyqırımları müxtəlif bəhanələr altında gizlətməyə, ört-basdır etməyə çalışır. Amma tarix və son zamanlar baş verən hadisələr bir daha göstərir ki, Əlcəzair xalqı bu faciəni unutmayıb və heç vaxt da unutmayacaq. Əlcəzairdə və başqa Afrika ölkələrində törətdiyi qanlı hadisələr Fransanın tarixində əbədi olaraq qara ləkə kimi qalacaq.

Təəssüflər olsun ki, Afrika ölkələrində, həmçinin başqa yerlərdə terror törədən Fransa dünyada terrorçu dövlət kimi tanınmayıb. Buna görə də Fransa terror və işğal fəaliyyətini dayanmadan genişləndirir. Bu ölkənin ermənilərin yanında dayanması da terrorçu xislətindən irəli gəlir. Afrika ölkələrində dişinə şirə dəymiş Fransa hökuməti işğalçılıq planlarını həyata keçirmək üçün Cənubi Qafqazda da möhkəmlənmək, Ermənistanı öz geosiyasi alətinə çevirmək üçün ciddi cəhdlər göstərir. Amma rəsmi Parisin bu cəhdləri çox əbəsdir. Çünki gündən-günə güclənən, beynəlxalq aləmdə nüfuzu artan, dünyada söz sahibinə çevrilən qüdrətli Azərbaycan bunun qarşısını qətiyyətlə alıb və həmişə də alacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 19 fevral (№37).- S.14.